DOI: https://www.doi.org/10.36719/2663-4619/65/101-105

**Əsmər Dadaş qızı Hüseynova**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
elmi işçi
esmer74.17@mail.ru

# MƏSUD ƏLİOĞLUNUN TƏNQİDÇİLİK FƏALİYYƏTİNİN ƏSAS MƏRHƏLƏLƏRİ

***Açar sözlər:*** *tənqidçi fərdiyyəti, ədəbi proses, elmi-nəzəri ümumiləşdirmə, müasirlik meyarı, estetik dəyərləndirmə, tənqidi fikir, yeni meyillər*

**The main stages of Masud Aliyoglu's critical activity**
**Summary**

The stages of development of Azerbaijani literary criticism in the twentieth century coincided with the period of political and ideological principles. It is substantial influence on aesthetic approaches is confirmed by existing research. In this sense, the study of the individual facts of criticism and the scientific and theoretical heritage of individual critics in stages creates a favorable basis for concrete conclusions. A step-by-step study of Masud Alieglu's 25-year career as a critic reveals interesting scientific and theoretical truths. The main priority goal of the article is to study the general activities of the critic and the directions of research in a unified way.

Based on articles and opinions written in a short period of time from the late 1940s to the 1950s, he chose Masud Aliyoglu as a leading field for his literary criticism. In the later stages of development, the literary-aesthetic factors that led to the continuation and development of research on the creative problems of poetry, prose, drama and literary criticism in the 50s and 60 s and 70s were focused on the analysis of facts.

***Key words:*** *critical individuality, literary process, scientific-theoretical generalization, criterion of modernity, aesthetic evaluation, critical thinking, new trends*

## Giriş

Azərbaycan ədəbi tənqidi iyirminci yüzillikdə özünün keyfiyyət baxımından tamamilə yeni bir inkişaf mərhələsinə qədəm qoyur. Belə bir keyfiyyət dəyişmələrini şərtləndirən amillər sırasında ədəbi təcrübənin inkişaf meyilləri ilə yanaşı, cəmiyyətdə, ictimai-tarixi şəraitdə baş verən proseslər də ciddi rol oynayır. Ədəbi düşüncə kimi, elmi-nəzəri fikrin çevik sahələrindən olan ədəbi tənqid də belə məqamlarda dövrün diktə və təsirlərinə məruz qalır, onun bədii fakt və hadisələri dəyərləndirmə prinsiplərində vulqar sosiologizmə,sənət nəzəriyyəsinə zidd müddəalara əsaslanmaq məcburiyyəti ilə üzləşir. Bu mənada doğrudan da tarixdə inqilabi çevrilişlər və kataklizmlər dövrü kimi yadda qalan iyirminci yüz ilin elmi-nəzəri fikrində ictimai-tarixi proseslər ciddi mübahisələrlə, bir-birini təkzib edən ixtilaf və polemikalarla müşaiyət olunurdu. Bu dövrün yeni ədəbiyyat siyasətinə və ədəbi-tənqidi fikrinə də təsirsiz ötüşmürdü. Mübahisələr və fikir qarşıdurmaları siyasi arenada olduğu kimi ədəbi-elmi cameədə qütbləşmə və qruplaşma kimi sinfi mübarizə müstəvisinə çıxarılırdı.

Böyük Oktyabr sosialist inqilabından sonrakı mərhələdə, xüsusən 20-30-cu illərdə ədəbi-tənqidi fikrin ədəbiyyatın tarixi təcrübəsi və inkişaf yolları barədə axtarışlara cəlb edilməsi əslində klassik irsin bir çox hallarda inkarını qabartmaq, sovet quruluşu dövründə yaranan yeni ədəbi-bədii nümunələrin üstünlüyünü təsdiqləmək məqsədi güdürdü. Ədəbiyyatın mənşəyi, sənətin estetik bir hadisə olmaq məziyyətlərindən sərf-nəzər edilməsi bir küll halında incəsənətin köklü yaradıcılıq problemlərinə konseptual baxışı və yanaşmanı arxa plana çəkir,mövcud cəmiyyətin platformasına uygun bir yanaşmanı sərgiləyirdi. Milli mənsubiyyətin və etnik-mədəni sistemin əxlaqi dəyərlərə söykənən sərvətlərinin təbliği pantürkist, panislamist damğalarla qarşılanır, repressiya dalğası vətənpərvər ruhlu ədəbiyyat və sənət xadimlərinin fiziki məhvinə gətirib çıxarırdı.

Yazıçı və şairlərlə, incəsənət xadimləri ilə yanaşı, repressiya maşını ədəbi tənqid və ədəbiyyatşünaslıq sahəsində fəaliyyət göstərən Firidun bəy Köçərlinin, Yusif Vəzir Çəmənzəminlinin, Salman Mümtazın, Əmin Abidin, Məmmədkazım Ələkbərlinin, Əli Nazimin, Hənəfi Zeynallının, Bəkir Çobanzadənin, Mustafa Quliyevin, Atababa Musaxanlının, Seyid Hüseynin (Kazımoğlunun) şəxsi taleyi, ömür yolu totalitar rejimin təzyiqi və fiziki məhvi ilə nəticələnməsi buna əyani bir nümunə kimi göstərilə bilər.

Ədəbi-bədii təcrübənin tarixi inkişaf təkamülünün totalitar rejimin tələbləri səviyyədə təsnifatı eynilə elmi-nəzəri fikrə də şamil olunur, siyasi-ideoloji amirlik prinsiplərindən çıxış etmək cəhdlərini dövrün reallığına çevirirdi. Sosialist realizmi kimi sırf ideoloji yaradıcılıq metodunun sovet cəmiyyətində, hətta

inkişaf etmiş sosialist ölkələrində yanan milli ədəbiyyatlar üçün əsas prinsip kimi müəyyənləşdirilməsi əslində azad ədəbiyyat və sənətin inkişafına öz zərərli təsirini göstərirdi. İdeoloji tələblərə söykənən belə bir yaradıcılıq metodunun ədəbi təcrübəyə tətbiqi böyük mübahisələrdən sonra keçən əsrin 30-cu illərindən etibarən ədəbi prosesə şamil olunması ədəbi-tənqidi fikri bu proseslərdən təcrid etmirdi, əksinə, siyasiləşmənin əsas ideoloqu kimi bir səlahiyyətin ona verilməsinə rəvac verirdi.

İnqilab mövzusu, kənddə kollektivləşmə mərhələsinin ədəbiyyatda aparıcı bir istiqamətə çevrilməsi, əslində mövcud ədəbi prosesi gələcəkdə bir mərhələ kimi təsnifatına hesablanmış bir cəhd idi. Ədəbi təcrübədə olduğu kimi, elmi-nəzəri ədəbiyyatşünaslıqda tədqiqatların 1900-1917, 1905-1917, 1920-1930, Böyük Vətən müharibəsi və dinc quruculuq illərinin bir mərhələ olaraq seçilməsi sovet quruluşunun bölgü və təsnifatına əsaslanırdı.

Ədəbi tənqid üçün sovet dönəminin məqbul hesab etdiyi belə təsnifat prinsiplərində aparıcı yaradıcılıq mərhələlərindən biri də Böyük Vətən müharibəsi və müharibədən sonrakı dinc quruculuq illərinin ayrıca və əlahiddə bir mərhələ kimi seçilməsidir. Bu, ədəbi prosesin, indiki halda ədəbi təcrübənin inkişaf xüsusiyyətini, konkret bir zaman kəsiyində mövcudluq imkanlarını aşkarlamaq məqsədi daşısa da, burada dövrün ictimai-siyasi konyukturasından irəli gələn ümumi yanaşmaları da inkar etmək mümkün deyil. Digər bir diqqəti çəkən cəhət də odur ki, belə məqamlarda ədəbi-bədii düşüncədən daha artıq səviyyədə ədəbi tənqid siyasiləşməyə, ideoloji dayaqlara meyillilik göstərirdi. Bu, əlbəttə, ədəbi tənqidin təbiətindən, hakim siyasi-totalitar üsul-idarələrin maraq dairəsini ifadə etmək cəhdindən irəli gəlirdi. Böyük Vətən müharibəsi illərində ədəbi tənqidin axtarışlarında nəzərə çarpan siyasiləşmə tendensiyasının özü belə bir qənaətə gəlməyə kifayət qədər əsas verir.

Qanlı-qadalı müharibə illərində faşist Almaniyasının anti-humanist mahiyyətinin ifşasında, onun bəşəriyyət üçün ciddi təhdidlər və fəlakətlər törətməsinin üzə çıxarılmasında ədəbi tənqidin fəal iştirakını heç cür danmaq olmaz. Dinc quruculuq illərində müharibə mövzusunda yazılan ədəbi nümunələrin nəzəri təhlilin predmetinə çevrilməsində ədəbi tənqid müstəsna mövqe qazanır, sovet xalqının monolit birliyini, həmrəyliyini ifadə edən əsərlərin xüsusi olaraq geniş oxucu kütlələri içərisində təbliğ edilməsinə, vətənpərvərlik ideyalarının gənc nəslə aşılanmasına fəal surətdə qoşulurdu. Bu mərhələdə elmi-nəzəri fəaliyyətə başlayan tənqidçilər sırasında Pənah Xəlilov, Seyfulla Əsədullayev, Əhəd Hüseynov, Qasım Qasımzadə, Atif Zeynallı, Bəkir Nəbiyev, Qulu Xəlilov, Cəlal Abdullayev, Abdulla Abbasov, Xalid Əlimirzəyev, Firudin Hüseynov, Təhsin Mütəllimov, Şamil Salmanov kimi imzaları xüsusi qeyd etmək olar.

Filologiya elmləri doktoru Məsud Vəliyev (daha sonralar Məsud Əlioğlu (1928-1973) – Ə.H.) müharibədən sonra elmi-nəzəri fəaliyyətə başlayan, özünün geniş erudisiyası ilə seçilən, ən müxtəlif yaradıcılıq problemlərini təhlil və ümumiləşdirmə predmetinə çevirən tənqidçilərdən biri idi. Ədəbi tənqid Məsud Əlioğlunun elmi-nəzəri fəaliyyətinin əsas və aparıcı istiqamətlərindən biri idi. Əslində dövrün həqiqət və gerçəkliklərini bədii mətnin ideya-məzmun siqlətində və yazıçı təxəyyülündə axtarıb-aramaq, təhlili məhz belə bir baxış bucağından aparmaq istəyi bir tənqidçi kimi onun məqalə və rəylərində özünü qabarıq şəkildə göstərirdi. Ədəbiyyat və bədii düşüncə vasitəsi ilə zaman və insan haqqında, onu düşündürən həyati məsələlər haqqında fikirlərin izinə düşmək, obyektivi həmin məsələrin üzərinə yönəltmək Məsud Əlioğlunun tənqidinə xas olan ümdə yaradıcılıq məziyyətlərindən biri idi.

"Bir hekayə haqqında" adlı ilk məqalə Məsud Əlioğlunun tənqidçi kimi elmi-nəzəri fəaliyyətə gəlişindən xəbər verən tənqid faktı idi. Bu yazıda (rəydə) professionallıq baxımından müəyyən qüsurlar, təcrübəsizlikdən irəli gələn kəm-kəsirlər nəzərə çarpsa da, konkret bir ədəbi nümunəyə özünəməxsus bir baxışın və münasibətin işartılarını görmək olurduu. Yazıçı İsmayıl Şıxlının "Raykom katibi" adlı hekayəsindən bəhs edən həmin məqalə 8 mart 1948-ci ildə "Ədəbiyyat qəzeti"ndə işıq üzü görmüşdü.

Ümumilikdə, Məsud Əlioğlunun keçən əsrin 40-cı illərinin sonlarından 50-ci illərin əvvəllərinə kimi on üç məqalə və rəyi ayrı-ayrı mətbuat səhifələrində dərc olunur. Həmin yazılar müəllifin universitetdə təhsil aldığı illərə (1946-1951) təsadüf edir. Həmin məqalələrdə nəsr, poeziya, dramaturgiya və ədəbi tənqid (tənqidçi şəxsiyyəti) Məsud Əlioğlunun elmi maraq dairəsini və istiqamətləri kifayət qədər əks etdirirdi.

Akademik Nizami Cəfərov bir tənqidçi-ədəbiyyatşünas kimi Məsud Əlioğlunun elmi-nəzəri irsində özünü mükəmməl şəkildə göstərən istiqamətlərdən bəhs edərək belə bir obyektiv qənaətə gəlir ki: "Məsud Əlioğlunun yaradıcılığında üç əsas istiqamət elmi-metodoloji aktuallığı (və enerjisi) ilə seçilir ki, onlardan birincisi xalq yaradıcılığı, ikincisi klassik, üçüncüsü isə müasir ədəbiyyatdır. İlk tədqiqatlarından başlayaraq maraq dairəsi çox geniş olan tənqidçi-ədəbiyyatşünas ədəbi növ, janr məhdudiyyəti bilməmiş, həm poeziyadan, həm nəsrdən, həm də dramaturgiyadan eyni peşəkarlıqla yazmaq təcrübəsinə yiyələnmiş, çox zaman mənbəyini paradokslardan alan yeni ideya-estetik çağırışlarla zəngin dövrün qabaqcıl təhlil (və ümumiləşdirmə) texnologiyalarını dərindən mənimsəyib böyük istedadla (və ustalıqla) tətbiq etmişdir ki, bu, gənc ədəbiyyatşünasın analitik-fəlsəfi təfəkkürə malik olmasından irəli gəlir." (Cəfərov N. 2018, s.5-14)

Ancaq bir əlamətdar cəhəti də unutmaq olmaz ki, ədəbi tənqid Məsud Əlioğlunun ümumi yaradıcılığının tərkib hissəsinə çevrilən, ardıcıl və səmərəli elmi-nəzəri axtarışları ilə diqqəti çəkən bir sahəsidir. Hələ universitet tələbəsi ikən dərc etdirdiyi ilk yazılarında da onun bu sahəyə ciddi elmi marağı özünü aşkar şəkildə büruzə verirdi. Keçən əsrin 50-ci illərinin ikinci yarısı və sonları, 60-cı illərin əvvəllərində nəşr olunan tədqiqləri, ədəbi-tənqidi məqalələri və monoqafiyaları Məsud Əlioğlunun ədəbi tənqidə intensiv maraq və münasibətini qabarıq nümayiş etdirirdi. Bu baxımdan "Mirzə İbrahimovun dramaturgiyası" (Vəliyev M. 1955, 125) "Osman Sarıvəlli" (Vəliyev M. 1958, 79) və Qulu Xəlilovla müştərək qələmə alınan "Rəsul Rza" (Vəliyev M. 1960, 114) kitab və monoqrafiyalarını xüsusi olaraq nəzərə almaq lazımdır. Adları çəkilən bu nümunələr bilavasitə tənqidçi təfəkkürünün məhsulu idi. Onlar dövrün ədəbi prosesinin aparıcı simalarının yaradıcılıq axtarışlarının təhlil və ümumiləşdirilməsi ilə yadda qalırdı.

Ədəbiyyatın və sənətin ən müxtəlif yaradıcılıq problemlərinə toxunan məqalə və monoqrafik araşdırmalar qələmə alsa da, Məsud Əlioğlu özünü bu tədqiqatlarda tənqidçi kimi təsdiqləməyə çalışır, tənqidi yanaşma və prinsipiallıq nümayiş etdirmək özünü göstərməkdə idi. Şübhəsiz ki, öz ixtisas və statusunu müəllif ədəbi-tənqidi məqalələrdən ibarət "Tənqidçinin düşüncələri" kitabında daha dürüst və obyektiv şəkildə təsdiqləyirdi. (Əlioğlu M. 1968, 174)

Məsud Əlioğlunun elmi-nəzəri fəaliyyətinin daha sonrakı mərhələlərində daha dərin və sistemli xarakter alması, məqsədyönlü və ardıcıl bir istiqamətə çevrilməsi onun tənqidi irsinə bütövlük gətirən səciyyəvi keyfiyyətləri üzə çıxarır. Buradan çıxış edərək tənqidçinin fəaliyyət göstərdiyi əsas yaradıcılıq mərhələlərinin təsnifatını belə bir bölgü əsasında ayrıntısını aparmaq olar:

**Birinci mərhələ: 40-cı illərin sonları və 50-ci illərin əvvəllərinə qədərki dövr**

Bu dövrdə qələmə alınan məqalə və rəylər kəmiyyət və keyfiyyət baxımdan bir o qədər diqqəti cəlb etməsə də, (bu da təbiidir) hər halda bu illər müəllifin elmi-nəzəri fəaliyyətinin başlanğıc mərhələsi kimi götürülə bilər.

**İkinci mərhələ: 50-60-cı illər**

Bu mərhələ bir tənqidçi kimi Məsud Əlioğlunun yaradıcılıq axtarışlarının inkişaf perspektivlərini üzə çıxaran, ciddi monoqrafik araşdırmalara tədricən artan maraq dairəsinin əhatəli vüsət aldığı bir dövr kimi götürülə bilər. Bu illərdə onun mətbuat səhifələrində müasir ədəbi prosesə aid məqalə və rəyləri, klassik və çağdaş sənətkarların yaradıcılıq irsinə həsr olunan tədqiq və araşdırmaları onun tənqidçi-ədəbiyyatşünas fərdiyyətinə məxsus səciyyəvi cəhətləri kifayət qədər nümayiş etdirir. Rus inqilabçı-demokratlarından və tənqidçilərindən D.İ.Pisarevin yaradıcılığına ilk yazılarda göstərilən maraq bu mərhələ də davam və inkişaf etdirilir. Müəllif bu mərhələdə N.A.Dobrolyubovun elmi-nəzəri-publisist fəaliyyətini geniş təhlil süzgəcindən keçirən "Böyük tənqidçi və inqilabçı" məqaləsini qələmə alır, dövri mətbuat səhifələrində dərc etdirir. Nəhayət, "C.Məmmədquluzadənin dramaturgiyası" (Bakı: Azərnəşr, 1954) və "S.S.Axundov" (Bakı: Azərnəşr, 1956) adlı monoqrafiyalar Məsud Əlioğlunun əsas yaradıcılığı XX əsrə təsadüf edən sənətkarların yaradıcılığına bir ədəbiyyatşünas marağını da kifayət qədər görüntüyə gətirir. Şübhəsiz ki, sırf ədəbiyyatşünaslıq mövqeyindən qələmə alınan bu monoqrafik araşdırmalarda müəllifin tənqidçi kimi bir sıra yaradıcılıq məsələlərinə münasibətinin əlamət və təzahürünü görmək mümkündür. Tənqidçinin elmi-nəzəri fəaliyyətindəki belə bir şaxələnməni qətiyyən onun ədəbi tənqiddən uzaqlaşmaq cəhdi kimi dəyərləndirilməsinə əsas vermir.

**Üçüncü mərhələ: 60-cı illər**

Bu mərhələni Məsud Əlioğlunun elmi-nəzəri fəaliyyətində kamilliyə, yetkinliyə, geniş fəlsəfi ümumiləşdirmələrə, ədəbi fakt və hadisələrə professional səviyyədən artan maraq dövrü də adlandırmaq olar. Tənqidçi bu mərhələdə ədəbi prosesi düşündürən ciddi yaradıcılıq problemləri barədə mülahizələr yürüdür, yeni yaranan bədii nümunələrin mövzu, ideya-sənətkarlıq xüsusiyyətlərinin dərk və qavrayışına nail olur. Nəsr, poeziya, ədəbi tənqidlə yanaşı, dramaturgiya və teatr kimi sahələrin real mənzərəsini cızan həmin məqalə və resenziyalar Məsud Əlioğlunun tənqid politrasına yeni çalarlar və mövzu istiqamətləri gətirməklə nəticələnir. Bu mərhələdə tənqidçinin elmi-nəzəri fəaliyyətində teatr tənqidinə artan marağı xüsusi olaraq nəzərə çatdırmaq lazımdır. Tamaşıya qoyulan dramaturji mətnin obrazlar vasitəsi ilə canlandıran rejissor yozumunun, digər texniki vasitə və elementlərin vahid bir məcrada əsərin ideyasının açılışına zəmin yaratması kimi mürəkkəb yaradıcılıq məsələlərinin təhlilə cəlb edilməsi və izahı Məsud Əlioğlunun teatra, yeni səhnə təcəssümü tapan əsərlərə həsr olunan məqalələrinin və resenziyalarının prioritet yanaşma tərzini və metodologiyasını aşkarlayırdı. Maraq doğuran bir əlamətdar cəhət də odur ki, məsələn, tənqidçinin 60-cı

illərin əvvəllərində – 1961-ci ildə tənqidi məqalələrdən ibarət kitabına daxil edilən yazıların mühüm hissəsi 50-ci illərin sonlarında qələmə alınan nümunələrdir.

Bu yazılarda və resenziyalarda Azərbaycan romantizminin görkəmli nümayəndəsi Hüseyn Cavidin "Şeyx Sənan" kimi mükəmməl bir tarixi əsərinin səhnəyə çıxarılması, böyük aktyor sənətinin formalaşmasında bu nümunənin oynamış olduğu rol da müəllifin diqqətindən kənarda qalmır: "Hüseyn Cavidin böyük ilham və sənətkarlıqla yaratdığı əsərlər səhnə sənəti sahəsində qüvvətli bir aktyor nəslinin yetişməsinə səbəb olmuşdur. Səhnəmizin mahir sənətkarlarından bir çoxu – Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, Mərziyyə xanım, Sidqi Ruhulla, Möhsün Sənani və başqaları bu dramaturqun əsərlərindən də çox şey öyrənmiş, zəngin yaradıcılıq təcrübəsi əldə etmiş və yüksəlmişlər. Hüseyn Cavidin dramlarında nəzərə çarpan kəskin konflikt, fikirlə hissin vəhdətindən doğan romantik vüsət və zəngin şeiriyyət tamaşaçı ilə səhnəni, aktyorla kütləni bir-birinə yaxınlaşdırmışdır."(Əlioğlu M. 1961, s.30)

**Dördüncü mərhələ: 70-ci illərin əvvəlləri və vəfatından sonrakı illər**

Bu zaman kəsiyi tənqidçinin elmi-nəzəri fəaliyyətinin ən qısamüddətli bir mərhələsi olsa da, professionallıq və kamillik dövrü kimi yadda qalır. Kəmiyyət baxımından iyirmiyə qədər problem-məqalələr tənqidçinin həm klassik ədəbi şəxsiyyətlər və müasir ədəbi prosesin yaradıcılıq problemlərinə həssas ədəbiyyatşünas və tənqidçi münasibətinin real mənzərəsi barədə yekdil fikir yürütməyə əsas verir. Məsud Əlioğlunun vəfatından sonra (23 iyun 1973-cü il) arxivindən əldə olunan məqalələrinin mətbuat səhifələrində dərc olunması onun ömrünün son günlərinə kimi məhsuldar yaradıcılıq fəaliyyəti göstərdiyini əyani şəkildə təsdiqləyir. Vəfatından bir il sonra tənqidçi-ədəbiyyatşünasın "Ədəbi fraqmentlər" (1974), "Məhəbbət və qəhrəmanlıq" (1979), "Amal və sənət" (1980) adlı məqalələr toplularının nəşr olunması belə bir həqiqətdən soraq verməkdədir. Ədəbi-tənqidi məqalələrdən ibarət olan bu toplularda Məsud Əlioğlunun ədəbi tənqid sahəsindəki axtarışları özünün problem dairəsi, miqyas genişliyi ilə diqqəti çəkirdi. Yaxşı haldır ki, ədəbi-elmi ictimaiyyət həyatdan vaxtsız getmiş tənqidçinin (eyni zamanda ədəbiyyatşünasın və ədəbiyyat nəzəriyyəçisinin) elmi-nəzəri irsinin elmi dövriyyədə fasiləsiz iştirakını təmin etmək kimi bir təşəbbüsün geçəkləşməsinə fəal şəkildə qoşulmuşlar. Bu, iyirmi beş il milli ədəbi-bədii təcrübənin və ədəbi prosesin yaradıcılıq problemlərini ehtiras və şövqlə elmi təhlilə cəlb edən Məsud Əlioğlunun şəxsiyyətinə və yadigar qoyub getdiyi bənzərsiz irsinə bir qədirşünaslıq nümunəsi kimi də dəyərləndirilə bilər.

1975-ci ildə Azərbaycan Dövlət Nəşriyyatında Yaşar Qarayevin redaktorluğu ilə çap olunan "Hüseyn Cavidin romantizmi" monoqrafiyası Məsud Əlioğlunun nəzəriyyə sahəsində vaxtilə elmi axtarışlar apardığını, nəzəri anlayış və kateqoriyalardan çıxış edərək XX əsr Azərbaycan romantizminin görkəmli nümayəndəsi Cavid yaradıcılığını araşdıran monoqrafik tədqiqat hesab oluna bilər.

Bu, bir tərəfdən onu nümayiş etdirir ki, ədəbi tənqid nəzəriyyə məsələlərinə heç də etinasız yanaşan bir sahə deyil. Əslində nəzərilik, nəzəri müddəalardan faydalanmaq, ədəbi nümunəni belə bir anlayışlar sistemi ilə əlaqə və vəhdətdə araşdırmaq ədəbi tənqidin mükəmməl bir struktur kimi inkişaf dinamikasına yiyələnmək səyləri, təcrübi imkanları barədə yekdil qənaət hasil edir. Zənnimizcə, Məsud Əlioğlunun tənidçilk fəaliyyətinin ümumi maraq dairəsini, ədəbiyyat tarixi və ədəbiyyatşünaslıq və ədəbiyyat nəzəriyyəsi istiqamətlərindən kənarda təsəvvür edilməsi müəyyən yanlışlıqlara gətirib çıxara bilər. Professional tənqidçi üçün mütləq şəkildə ədəbi-bədii təcrübənin keçmiş olduğu yaradıcılıq təkamülününə və nəzəri problemlərə eyni səviyyədə bələd olmaq da mühüm və müstəsna şərtlərdəndir. Bu, tənqidçinin tarixiliklə müasirliyin əlaqə və təmaslarındakı səsləşmələri, oxşar və fərqli məqamların üzə çıxarılmasında istinad etdiyi vacib müddəalardan hesab olunur. "Məhəbbət və qəhrəmanlıq" (Bakı: "Yazıçı" nəşriyyatı, 1979), "Amal və sənət" (Bakı: "Yazıçı" nəşriyyatı, 1980 ), "Darıxan adamlar" (iki cilddə, Bakı: "Elm və Təhsil" nəşriyyatı, 2009) və "Darıxan adamlar" (seçilmiş əsərləri, Bakı: "Təhsil" nəşriyyatı, 2018) Məsud Əlioğlunun bir tənqidçi-ədəbiyyatşünas kimi elmi-nəzəri dövriyyədə fasiləsiz iştirak etmək səlahiyyətinin əyani göstəricisi hesab oluna bilər.

**Nəticə**

Məsud Əlioğlunun ilk mətbu yazılarından başlayaraq ədəbi prosesin real mənzərəsini, axtarış meyillərini təhlil süzgəcindən keçirmək təşəbbüsünün nəticəsi kimi irəli sürülən tənqidi qeyd və mülahizələrindəki fikir maksimalizmi, ədəbiyyatı canlı həyati gerçəklillərlə bağlı dəyərləndirmək cəhdləri mərhələlər üzrə araşdırılması bir küll halında ədəbi tənqidin ümumi mənzərəsinin səciyyəvi məqamları barədə yetərincə təsəvvür yarada bilir. Məsud Əlioğlunun ədəbiyyat tarixi, ədəbiyyatşünaslıq və ədəbiyyat nəzəriyyəsi sahəsində elmi axtarışlarının ədəbi təcrübə ilə müasir ədəbi poses arasında qarşılıqlı əlaqə və təsirləri ənənə və novatorluq müstəvisində qiymətləndirilməsi kimi məsələlər diqqət mərkəzində saxlanılmışdır.

**Ədəbiyyat**

1. Nizami Jafarov. Thinker, literary critic, foreword. Masud Aliyoglu, Longing people (selected works), Baku: "Education" publishing house, 2018.
2. Masud Valiyev. Dramaturgy of Mirza Ibrahimov, Baku: Azerbaijan State Publishing House, 1955.
3. Masud Valiyev. Osman Sarivalli, Baku: Ushaqganjnashr, 1958.
4. Masud Valiyev, Gulu Khalilov. Rasul Rza, Azerbaijan State Publishing House, 1960.
5. Masud Valiyev. Ideological friends (critical articles), Baku: Azerbaijan State Publishing House, 1961.
6. Masud Aliyoglu. Thoughts of a critic, Baku: Azerbaijan State Publishing House, 1968.

**Rəyçi: dos. Q.Mirzəzadə**

Göndərilib: 02.04.2021 Qəbul edilib: 08.04.2021